## Həyat və yaradıcılığı

Hüseyn Abdulla oğlu Rasizadə (Hüseyn Cavid) - Azərbaycan şairi, dramaturq. Ruhani ailəsində doğulmuş, ibtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini M.T.Sidqinin "Məktəbi-tərbiyə" adlı yeni üsullu məktəbində almışdır (1894-1898).

1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmiş (1909), Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir.

Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, 20-ci əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şerlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. "Keçmiş günlər" adlı ilk şer kitabı 1913-cü ildə çap olunmuşdur.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub, yazı ədası forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid teatrı" kimi səciyyələndirilmişdir. Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır. Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" (1914) əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. Hüseyn Cavid bu dövrdə tədriclə "haq verilmir, alınır" ideyasına gəlib çıxmışdır.

Yaradıcılığında mühüm yer tutan "İblis" (1918) mənzum faciəsində dövrün bütün mürtəce qüvvələri - "insan insana qurddur" fəlsəfəsinin tərəfdarları, "iyirminci əsrin mədəni

vəhşiləri" olan dairələri İblis surətində ümumiləşdirilmiş, işğalçı müharibələrə lənət yağdırılmışdır.

1926-cı ildə müalicə üçün Almaniyaya gedən və 7 ay Berlində yaşayan Hüseyn Cavid oradan ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şerlərlə qayıtdı.

20-30-cu illərdə Hüseyn Cavid bir sıra tarixi dramlar yazmışdır. "Peyğəmbər" (1922) və "Topal Teymur" (1925) əsərlərindən sonra yazdığı "Səyavuş" (1933), "Xəyyam" (1935) tarixi dramları Hüseyn Cavidin tarixə, tarixi şəxsiyyətlərə baxışında ciddi dönüş oldu. Cənubi Azərbaycandakı azərbaycanlıların "şahənşahlıq" üsuli-idarəsi əsarəti altında əzab çəkməsi, ən adi insan hüquqlarından məhrum edilməsi də vətənpərvər şair kimi Hüseyn Cavidi düşündürürdü ("Telli saz" dramı, 1930; "Kor Neyzən" poeması, 1930).

Sovetlər Birliyində totalitarizmin dəhşətli dövründə Hüseyn Cavid sosializmin "nailiyyətlər"indən yazmağı özünə rəva bilməmiş, Stalini, Azərbaycan ağalarını mədh etməkdən qətiyyətlə boyun qaçırmışdır. Ona görə də bu mətin şəxsiyyət Sibir buzlaqlarına sürgün edilmiş və orada həlak olmuşdur. (5.12.1941, İrkutsk vilayəti) Şairin anadan olmasının 100 illik yubileyi geniş qeyd olunmuşdur. Naxçıvanda ev-muzeyi yaradılmışdır (1981).

Yubiley ərəfəsində cənazəsinin qalıqları İrkutsk vilayətindən Naxçıvana gətirilib, ev-muzeyinin yaxınlığında dəfn edilmişdir. Naxçıvanda onun qəbri üstündə möhtəşəm məqbərə ucaldılmışdır.

Azərbaycan ədəbiyyatının söz və fikir zadəganıdır. Daxili ləyaqəti sənət idealına son dərəcə uyğunlaşmışdı. Bəlkə də bu sənət idealı onun daxili ləyaqətini illər, on illər boyu formalaşdırmışdı. “Gözəllik namına, sevqi namına” yazan böyük sənətkar neft buruqlarından və dəniz qəhrəmanlarından, tarlada səhərdən gecəyədək çalışan əmək qabaqcıllarından tərənnüm dolu süni misraların sayını çoxaltmadı. Azərbaycan yaradıcı fikri bu süni misralar təlatümündə boğulduğu bir zamanda həyatı bahasına olsa da, Cavid öz sənət idealına xain çıxmadı, onu satmadı. Gözəllik və sevgi şairi idi, eləcə də qaldı.

Azərbaycan Şekspiri dörd əsr gecikmişdi. Ona yazmaq, yazmaq, yazmaq lazım idi. Ağ vərəq, mürəkkəb və qələm. Vaxt onu qovurdu. Söz və fikir zadəganı. Keçmişdə qalmış dəbdəbə və təmtərağı, yüksək ehtirasları tərənnüm edərək, həm də onlara yas saxladı. Beləcə əsilzadə, köklü-soylu zadəgan əlacsızlıq və ümidsizlikdən ürəyi partlaya-partlaya, gözləri görə-görə öz kralını eşafota yola salır. Bu günə qəti ümidi yox idi. Bütün keçmişi — yaxşı tanıdığı və sevə-sevə oxşadığı o böyük keçmişi yalnız gələcəyə etibar edə bilərdi.

Əsilzadələrə bu dünyada yer yoxdur. Onlar öz padşahlarının ölümü ilə bacarıb bu dünyanı tərk eləməlidirlər. Yoxsa cütçülərə, çobanlara, sərsərilərə yoldaş ola bilərlər. Son məqam isə başı uca tutma məqamı, son döyüş isə özünə qarşı yönəltdiyin qılıncdır. Cütçünün yoldaşı cütçü, çobanın yoldaşı çoban olmalıdır.

Sənin ən böyük təsəllin odur ki, sən sonunculardansan. Səndən sonra sənə oxşar olmayacaq. Hər şey qaynayıb-qarışacaq bir-birinə. Bir-birinin içində itəcək. Fərq etməyəcək kim kimdir. Fərq etmədiyinə görə də nəsillərin təbii axarının ardıcıllığı qırılacaq; bu təbii axarın gah qarşısı kəsiləcək, gah da sonrakı davamla qatı açılacaq. Mənən çobanlar ədəbiyyata "gərgin" əməklə gələcək və onlar adlarını sənətkar qoyub o süni misralar dənizinin təlatümünü getdikcə daha artıq şiddətləndirəcəklər. Burda ayıb olan heç nə yoxdur: yerlər dəyişik düşə bilməz, çoban çoban olaraq qalmalıdır. Belə olmayanda belə olur. Sənin ən böyük təsəllin: Sonunculardansan! Sonuncu söz və fikir zadəganlarindan.

**Mişkinaz Cavidin həyat yoldaşıdır.**

Cavid Müşkinaz Molla Hüseyn qızı (1902, Naxçıvan ş. – 16.11.1976 Bakı) Hüseyn Cavidin ömür-gün yoldaşı. H. Cavidin ilk oxucusu olmuş, onların üzünü köçürmüşdür. "İblisin intiqamı" pyesinin onun xətti ilə köçürlmüş surəti olmasaydı, böyük şair və dramaturqun repressiya qurbanı olmuş başqa əsərləri kimi, bu əsər də itəcək. Hüseyn Cavidin həbsindən sonar tikiş artelində işləmiş, mənzilləri əlindən alınmış, məşəqqətli günlər yaşamışdır. Lakin bu qeyrətli qadın bütün əzab-əziyyətlərə mərdliklə sinə gərərək dahi ərinin şərəf və ləyaqətini uca tutmuşdur. Hüseyn Cavidlə bağlı xatirələrinin bir qismi çap olunmuş, bir qismi isə böyük şairin Bakıdakı ev-muzeyində saxlanılır. Məzarı Hüseyn Cavidin Naxçıvandakı məqbərəsində, ərinin və oğlu Ərtoğrulun qəbrləri ilə yan-yanadır.

**Ərtoğrul Hüseyn Cavid oğlu**

Ərtoğrul Hüseyn Cavid oğlu 22 noyabr 1919 Bakıda anadan olmuşdur. Hüsey Cavidin oğludur. Azərbaycan Pedaqoji İnstitutunu (indiki APU) Fərqlənmə diplom ilə bitirmişdir (1940). Azərbaycan Dövlət Konservatoriyasında oxumuşdur (1941- 1942 Ü. Hacıbəyovun sinfi) İlk böyük əsəri fortepiano üçün yazılımış "9 Lariasiya" dır. (1941-42 Ü. Hacıbəyova ithaf olunub) . Skripka ilə fortepiano üçün poema (1941) Nizaminin "Sevgili yar gəlmiş idi" qəzəlinə, Nigar Rəfibəylinin "Eşq olsun", Türkmən şairi Kəminənin "Leylanın vəsfi". T. Rəsizadənin "Səninlə olaydım" və s. Şerlərinə roman və mahnılar bəstələmişdir. Böyük Vətən müharibəsi başlarkən "Sərhəddən məktub" simfonik balladasının və marşlar yazmış, "Şeyx Sənan", "Məshəti" operaları bir sıra kamera və intrumental əsərləri yarımçıq qalmışdır. 1939-42 illərdə Az-n Dövlət Konservatoriyasında Bülbülün rəhbərlik etdiyi xalq

musiqisini öyrənən elmi-tədqiqat kabinetində çalışmış burada musiqi folkloru nüm-nin toplamasında işt etmiş, 1941-42 – ci illərdə konservatoriyasının nəzdindəki musiqi məktəbində dərs demişdir. Azərbaycan xalq mahnılarını nota salmış, Avropa və rus bəstəkarlarını ayrıca notlar şəkilində çap olunmuş romans və mahnılarını Azərbaycan dilinə tərcümə etmişdir. Şerləri, pyesi və rəsmləri var. 1942-ci ildə tələbə olmasına baxmayaraq, ordu sıralarına çağrılmış, “Xalq düşməni”nin oğlu olduğu üçün cəbhəyə deyil, Gürcüstanda yerləşən fəhlə batalyonuna işləməyə göndərilmişdi. 14 noyabr 1943 Naxçıvanda vəfat etmişdir. Məzarı

Hüseyn Cavidin Naxçıvandakı məqbərəsində atasının və anası M. Cavidin qəbrləri ilə yan-yanadır.

## Hüseyn Cavidin xatirə muzeyi

21 iyul 1981-ci ildə Azərbaycan KP MK-nın "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" qəbul etdiyi qərarda Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin xatirə muzeylərinin yaradılması, Bakı şəhərinin İstiqlaliyyət (keçmiş Kommunist) küçəsində Hüseyn Cavidin 1920-ci ildən 1937-ci ilədək yaşamış olduğu 8 saylı evin fasadının təzələnməsi və ona yazıçının xatirə lövhəsinin vurulması göstərilirdi. Bu qərar əsasında Mədəniyyət Nazirlyninin 14 avqust 1981-ci il tarixli 228 saylı əmri ilə Hüseyn Cavidin 100 illik yubileyinin keçirilməsi və 15 dekabr 1981-ci il tarixli 522 saylı əmri ilə Bakı şəhərində Hüseyn Cavidin memorial muzeyinin açılması nəzərdə tutulurdu. Mədəniyyət Nazirliyinin 1991-ci il 16 aprel tarixli əmrinə əsasən adı çəkilən binanın 5 otağı Hüseyn Cavidin ev muzeyi üçün ayrılmışdı. Lakin bina həmin bina olsa da, ayrılmış 5 otaq Cavidlərin yaşamadığı otaqlar idi. 10 iyun 1995-ci ildə Azərbaycan prezidenti Heydər Əliyevin yanında tarixi müşavirə keçirildi və 14 illik fasilədən sonra Hüseyn Cavidin Naxçıvanda məqbərəsinin, Bakıda ev

muzeyinin yaradılması ilə əlaqədar məsələlər müzakirə olundu və dərhal öz həllini tapdı. Bununla əlaqədar Nazirlər Kabinetinin 10 iyul 1995-ci il 160 saylı qərarı ilə Hüseyn Cavidin ev muzeyinin yaradılması, onun Azərbaycan EA-nın tabeliyinə verilməklə ədibin yaşadığı binanın, (İstiqlaliyyət küçəsi,8) 2-ci mərtəbəsində giriş də daxil olmaqla, 3-cü mərtəbəsində yerləşməsi və Hüseyn Cavidin ev muzeyi adlandırılması məsələsi həll olundu. H.Cavidin ev muzeyi 245 kv metr sahəni əhatə edir və onun 130 kv metrində ekspozisiya yerləşir. Ekspozisiyada 600-dən artıq eksponat nümayiş etdirilir. Bu eksponatlar içərisində məhz Cavidlər ailəsinə məxsus məişət və geyim əşyaları, Hüseyn Cavidin müxtəlif illərdə çap olunmuş əsərləri, şəxsi kitabları, ailəvi fotolar, dram əsərlərinin tamaşalarından proqram, afişa və fotolar, Ərtoğrol Cavidin istifadə etdiyi kitablar, bəstələdiyi musiqi əsərlərinin notları, bunlardan Ü. Hacıbəyova həsr etdiyi fortepiano üçün "9 variasiya", "Eşq olsun", "Skripka ilə fortepiano üçün poema" və s. əsərləri, daha sonra vallar, müxtəlif sənədlər, məktublar vardır. Həmçinin Turan Cavidin fəaliyyəti ilə bağlı olan materiallar nümayiş edilir. Hüseyn Cavidin yazı masası, Mişkinaz xanıma məxsus tikiş maşını, radioqəbuledici, yemək masası və bir çox eksponatlar ekspozisiyada əsas yer tutur. Ekspozisiyanın tərtibatı zamanı bir neçə görkəmli sənət xadimlərinə süjetli əsərlər sifariş olunmuş və bu əsərlər ekspozisiyanı daha da zənginləşdirmiş, onu baxımlı və maraqlı etmişdir. Bunlardan Oqtay Sadıqzadənin "Cavid dünyası" triptixi, "Mişkinaz xanım" portreti, Ömər Eldarovun "Hüseyn Cavid", "M. Cavid", "Ə.Cavid" mərmər büstləri, A. Hacıyevin "Son yay" və "Hüseyn Cavid" əsərləri, İ.İbrahimovun "Naxçıvandakı məqbərənin maketi", A. Kərimovanın süjetli - "Cavid" xalçası, R.Əsədovun «Ə.Cavid» portreti, Ə. Əliyevin «İblis operasının yaranması» əsəri, S. və F. Məmmədvəliyevlərin ağacdan Hüseyn Cavidin ərəb qrafikası ilə adı və soyadı yazılmış miz və üstündə «Azər»dən parçalar olan gümbəz şəkilli fiqur, Cavid əsərlərinin adlarının ağac üzərində oymaları və s. əsl sənət nümunələrini göstərmək olar. Muzeydə

məxsusi olaraq 1 otaq, Cavidin iş otağı, repressiya otağı kimi ayrılıb. Bu otaqda O. Sadıqzadənin böyük ürək yanğısı ilə işlədiyi «1937-ci ilin repressiya qurbanları» əsəri və V. Ucatayın «Zordan üstün» əsəri həm Hüseyn Cavidə, həm də Azərbaycanın digər repressiya qurbanlarının xatirəsinə rekviem kimi qəbul olunur. Muzeyin əsas fondunda 5000, elmi-köməkçi fondda isə 300 əşya qorunub, mühafizə olunur. Bunların sayı yeni materiallar hesabına daima artır. Muzeyin fonotekası da Hüseyn Cavidə həsr olunmuş yeni radio, televiziya verilişlərinin, video və audio kasetlərin, müsahibələr və səhnə tamaşalarının lent yazıları hesabına daim zənginləşir. Təəssüflər olsun ki, 2000-ci il noyabrın 25-də Bakıda baş vermiş zəlzələ nəticəsində muzeyin ekspozisiya sahəsi zədələndiyinə görə muzey bir müddət ekspozisiyasını aça bilmədi. Muzeyin ekspozisiya sahəsi bir daha təmir olunduqdan sonra bu mümkün oldu. 23 oktyabr 2002-ci il tarixdə Prezident Heydər Əliyev «Hüseyn Cavidin 120 illik yubileyi haqqında» sərəncam imzaladı. 24 oktyabr 2002 – ci il tarixdə, Hüseyn Cavidin 120 illik yubileyi günündə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Hüseyn Cavidin ev muzeyinin açılış lentini kəsərək, ekspozisiya ilə tanış olub, muzeyin rəy kitabına ürək sözlərini yazdı və gələcək fəaliyyətinə xeyir-dua verdi. Beləliklə, 24 oktyabr 2002-ci il tarixdən Hüseyn Cavidin ev muzeyinin ekspozisiyası qapılarını geniş tamaşaçı auditoriyasının üzünə açdı. Bu müddət ərzində, məhz Hüseyn Cavidin 120 illik yubileyi ilə əlaqədar verilmiş sərəncama müvafiq olaraq, muzeyin ekspozisiyasında günümüzlə səsləşən müəyyən yeniləşmə işləri aparılmış, rəssamlardan A.Kərimovaya və R.Əsədova yeni sifarişlər verilmişdir. Ekspozisiya üçün sujetli «Ana» və «Ərtoğrol Cavid» xalçaları sifariş olunmuş (A.Kərimova), «Ə.Cavid» portreti, «Topal Teymur» televiziya tamaşasına işlənmiş 7 eskiz alınmışdır (R.Əsədov). Azərbaycan, rus və ingilis dillərində «Hüseyn Cavidin ev muzeyi» və «Ə.Cavid» bukletləri sifariş olunmuşdur. Muzeyin fondu üçün Hüseyn Cavidin yeganə iri həcmli əlyazma nüsxəsi, 158 səhifəlik 20 parçadan ibarət «Azər»

poemasının əlyazması, M.Cavidin «Hüseyn Cavid haqqında xatirələri» (102 səhifəlik dəftər) əldə edilmişdir. Hazırda bu qiymətli nümunələr muzeyin fondunda qorunub, mühafizə olunur. Hazırda Hüseyn Cavidin ev muzeyi tam hüquqla tərkibinə daxil olduğu Milli Elmlər Akademiyasının elmi idarələrindən biridir. Artıq neçə ildir ki, burada elmi əməkdaşların fəaliyyətini koordinasiya edən Elmi Şura fəaliyyət göstərir. Muzey böyük təbliğat və təşviqat işləri aparır, muzeydə çoxsaylı qonaqlarla müxtəlif dillərdə izahatlar aparılır, məktəblərdə, litseylərdə, digər təhsil ocaqlarında, qaçqın yataqxanalarında tədbirlər keçirilir, Cavidlərə həsr olunmuş mühazirələr oxunur, səyyar sərgilər nümayiş etdirilir. Muzeydə Cavidlər ailəsinin doğum və anım günləri hər il bu ailəyə məxsus bənzərsiz, ılıq və munis bir ab-havada keçirilir. Hüseyn Cavidin ev muzeyi Naxçıvanda yerləşən Hüseyn Cavidin ev muzeyi ilə mütəmadi yaradıcılıq əlaqələri saxlayır, ona lazımi metodiki yardım göstərir. Hüseyn Cavidin ev muzeyi gələcəkdə də Cavidlər irsinin tədqiqi, öyrənilməsi, qorunması və təbliği istiqamətində öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirəcək